iki sahil

15 dekabr / 2020

# Xalq şairi Məmməd Arazdan soraq verən qiymətli əsər

**"Xalq şairi Məmməd Araz (1933-2004) XX əsr Azərbaycan şeirinin yeni inkişaf yolunu müəyyənləşdirən və onun zirvəsini təşkil edən məharətli söz ustadı, qüdrətli bir sənətkardır. Bu görkəmli söz ustadı yaradıcılığa gəldiyi mərhələdə xalq şeiri ənənələrinə dayanan Azərbaycan poeziyasının inkişafı və zənginləşməsinə öz misilsiz töhfələrini vermişdir. Qırx ildən artıq bir mərhələdə özünün qeyri-adi sənətkarlıq qüdrəti, fövqəl poetik qələmi ilə Azərbaycan poeziyasının mövzu cəhətdən zənginləşməsi və poetexnikasının əlvanlaşmasına xidmət etmişdir".**

Bu sözlər yenicə çapdan çıxmış Azərbaycan ədəbiyyatının görkəmli söz ustadı, Xalq şairi Məmməd Araz yaradıcılığına həsr olunan monoqrafiyada əksini tapmışdır. "Milli yaddaşın məhək daşı: Xalq şairi Məmməd Araz" adlanan monoqrafiyanın müəllifi AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovdur. Bu əsər bizim üçün həm də ona görə əlamətdardır ki, haqqında bəhs etdiyimiz monoqrafiyanın müəllifi vaxtilə bizim universitetdə təhsil almış istedadlı tələbələrimizdəndir. Əlbəttə, fəxr və fərəh doğurur ki, bir zamanlar qarşında oturub dərs dinləyən, səndən dərs alan tələbə bu gün öz əsərləri ilə elm müstəvisinə gəlir və sözün əsl mənasında öz ustadlarına və aldığı dərsə, tərbiyəyə bərəkallah qazandırır.

Müəllifin xüsusi şövqlə yazdığı bu əsər onun Xalq şairinin yaradıcılığı üzərində uzun illər apardığı tədqiqat və müşahidələrinin nəticəsi kimi diqqəti cəlb edir. Çoxsaylı elmi və publisistik məqalələri müəllifin Xalq şairi Məmməd Araz sənətinə olan sonsuz marağını özündə təcəssüm etdirir. Monoqrafiyanın elmi redaktoru Əməkdar elm xadimi, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylidir. Monoqrafiyanın rəyçiləri isə AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, mərhum professor, Əməkdar elm xadimi Hüseyn Həşimli, filologiya üzrə fəlsəfə doktoru, dosentlər Aynur Xəlilova və Zülfiyyə İsmayıldır. Monoqrafiya AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə çap edilmişdir. Naxçıvanda "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çap edilən əsər poliqrafik keyfiyyət və məzmunluluğu ilə diqqəti cəlb edir.

İki fəsildən ibarət olan monoqrafiya "İstiqlal" ordenli Xalq şairi Məmməd Araz yaradıcılığını müxtəlif aspektlərdən elmi təhlil etmək baxımından maraq doğurur. Əsər Azərbaycan ədəbiyyatının ən çox sevilən və oxunan sənətkarlarından olan Məmməd Araz şəxsiyyəti və irsi haqqında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin söylədiyi müdrik fikirlərlə başlayır. Ulu Öndərin də dediyi kimi: "Xalq şairi Məmməd Araz dövrümüzün sənət zirvəsində durur". Tədqiqatçı əsərin əvvəlində həm də Xalq şairinin ədəbi vəsiyyətnaməsi olan "Qara cilddə çap eləyin kitabımı" şeirini də təqdim edib oxucuların diqqətinə çatdırır.

Monoqrafiyaya Əməkdar elm xadimi, mərhum professor Hüseyn Həşimli tərəfindən yazılan "Məmməd Araz dünyası elmi-ədəbi yaddaş işığında" adlanan "Ön söz"də həm əsərin müəllifi, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun elmi yaradıcılığı və tərcümeyi-halı haqda yığcam məlumat verilir, həm də əsərin əsas qayəsi, elmi istiqamətlərbarəsində tezislər səsləndirilir.

Monoqrafiyanın elmi strukturu da mükəmməldir. Əsərin girişində tədqiqatçı Xalq şairi Məmməd Arazın Azərbaycan ədəbiyyatı tarixində tutduğu yerə və mövqeyinə dəqiq nəzər salaraq tutarlı fikirlərlə zəngin oçerk ortaya qoyur. Əsərdə alim haqlı olaraq göstərir və qəti bir fikirlə qeyd edir ki: "...bu görkəmli Xalq şairini istər peşəkar, istərsə də həvəskar oxucu vətəndaş-şair kimi tanıyır. Onun poeziyası vətəndaşlıq lirikası kimi səciyyələndirilir. Vətən mövzusu onun zəngin poeziyasının ali mövqeyini təşkil edir. Milli ədəbiyyatımızda vətəndaşlıq konsepsiyasının poetik təzahürünü də məhz bu görkəmli söz ustadı yaratmışdır. Dillər əzbəri olan "Məndən ötdü, qardaşıma dəydi" şeiri milli tarixi taleyin acı və kədərli təcrübəsinin nidası olaraq səsləndiyi kimi, "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" kimi məşhur vətəndaşlıq konsepsiyası və poetik etirafını da məhz Xalq şairi Məmməd Araz səsləndirmişdir. Onun yaradıcılığından həmişə dik, böyük, alnıaçıq, məğrur bir Azərbaycan boylanır; tarixin keşməkeşlərindən məğrurluqla çıxan, çətin sınaqlarına sinə gərən qəlbi böyük, mənəviyyatı zəngin, vətənpərvər bir Azərbaycan...".




"Xalq şairi Məmməd Arazın yaradıcılıq qayəsi" adlanan birinci fəsildə İstiqlal şairlərimizin ağsaqqallarından olan Məmməd Araz yaradıcılığının vətəndaşlıq qayəsi və milli mündəricəsi təhlil predmetinə çevrilir. Müəllif təhlillərində sadəcə qəlibləşmiş söz və fikirlər ardınca getmir, tədqiqat mövzusu və istiqamətinə görə original təhlilləri ilə üzə çıxarılmış qiymətli nəticələrini, dolğun fikir və mülahizələrini səsləndirir, şairin Vətən məhəbbəti və vətəndaşlıq qayəsini konkret nümunələr, faktlar əsasında təqdim və ehtiva edir. Tədqiqatçı təsvirçilikdən uzaq gəzərək yalnız öz düşüncə və üslubunun nəticəsi olan maraqlı təhlillərlə əldə edilən original nəticələr ortaya qoyur. Əsərin bu fəslində diqqəti cəlb edən mühüm, əlamətdar xüsusiyyətlərdən biri görkəmli ədəbiyyatşünas alim, akademik Məmməd Cəfərin təhlil metoduna uyğun olaraq Xalq şairi Məmməd Araz şəxsiyyətinə onun yaradıcılıq qayəsindən irəli gələrək şəxsiyyətin müxtəlif tərəfləri ilə yanaşma, bir az əvvəl qeyd edildiyi kimi, ona bir vətəndaş, mücahid, övlad, ata, həyat və ömür gün yoldaşı, dost, aşiq və başqa statuslardan yanaşmadır. Müəllif Məmməd Araz yaradıcılığını konseptual şəkildə tədqiq edir, onun yaradıcılıq nailiyyətlərinin başlıca istiqamətlərini önə çəkir.

Əsərin ikinci fəsli "Məmməd Araz yaradıcılığının sənətkarlıq xüsusiyyətləri" adlanır. "Xalq şairi Məmməd Araz yaradıcılığının mövzu-məzmun xüsusiyyətləri", "Məmməd Araz yaradıcılığında sevgi lirik tema kimi", "Məmməd Araz yaradıcılığının fəlsəfi mahiyyəti", "Məmməd Araz şeirinin dil-üslub xüsusiyyətləri" kimi bölmələrdə Məmməd Araz poeziyasının əlvan söz zənginliyi, mövzu müxtəlifliyi, poetexniki imkanları, sənətkarlıq məharəti və qüdrəti konkret nümunələrlə göstərilir. Əsər müəllifi şairin sənətkarlıq məharətini onun yaratdığı obrazların daxili mahiyyəti və yaranma imkanları əsasında şərh edir, mümkün qədər obrazların ifadə etdiyi ictimai yükü əks etdirməyə çalışır.

Şairin fəlsəfi fikir aləminə dərindən nüfuz etməyə səy göstərən müəllif onun bir sıra bu səpkidən olan əsərlərini, xüsusilə məşhur "Dünya sənin, dünya mənim" şeirini çox inandırıcı şəkildə şərh etməyə müvəffəq olur. Aydın müşahidə olunur ki, müəllif bir tərəfdən Xalq şairinin yaradıcılığına, onun mənəvi dünyasına yaxından bələddir, bir tərəfdən də fəlsəfi fikir mövzusunda geniş mütaliə və əhatəli biliklərə malikdir. Şairin sevgi dünyasından da maraqlı təhlillər ortaya qoyan müəllif Xalq şairinin məhəbbət mövzulu şeirlərindəki məhrəmi, saflığı, özünəməxsus keyfiyyətləri, həm də əks olunduğu ifadə vasitələri və şəkilləri ilə təqdim edir.

Monoqrafiyada alimin tədqiqatçılıq məharəti, onun şirin üslubu, dəqiq məntiqi, yığcam və dolğun tezisləri, fikirlərin ölçülü və nəticəliliyi və s. çox yaxından müşahidə olunur. Sanki müəllif öz oxucusu ilə həmsöhbət kimi davranır, onun qəlbindən xəbər verən bir tərzdə fikirlərini çatdırır. Sadəlik və anlaşıqlılıq qeyd edilən bu tədqiqatın başlıca yazı tərzi, üslubi nailiyyətidir. Alimin tədqiqatçılıq məharətində diqqəti cəlb edən mühüm xüsusiyyətlərdən biri də onun statistik təhlillərə istinad etməsidir. Mümkün ədəbiyyatşünaslıq təhlillərindən başqa tədqiqatçı bəzi əsərlərin təhlilində, onların ideya-estetik xüsusiyyətlərinin izahında linqvistik təhlillərə də dayanır, xüsusi işlənmə tezliyinə malik, hətta bəzi əsərlərin konkret olaraq üzərində qurulduğu sözləri təhlil edərək maraqlı tədqiqat örnəyi ortaya qoyur.

Tədqiqatçı Məmməd Arazın söz qüdrətindən ağızdolusu danışır, konkret nümunələr, çoxsaylı örnəklər təqdm edir. Məmməd Araz şeriyyətinin bədii məntiqi və didaktik qüdrətinə diqqəti çəkən tədqiqatçı çoxsaylı aforistik beytlər, misralar nümayiş etdirməklə Məmməd Arazın yaradıcılıq dilinin üslubi qüdrətinə və əsərlərinin ideyalılığına heyrətamiz münasibət sərgiləyir Monoqrafiyadan oxuduğumuz bu sətirlər isə konkret təhlillərin fonunda daha səmimi və inandırıcı təsirilə seçilir: "Ümumiyyətlə, Azərbaycan dilinin - ana dilinin belə kamil işlənməsi və təcəssümünə görə Xalq şairi Məmməd Arazın yaradıcılığı xüsusi məziyyət təşkil edir. İnsanlara dil öyrədən Uca Allah sanki Xalq şairi Məmməd Arazın yaradıcılıq dili timsalında Azərbaycan dilində danışmışdır". Maraqlıdır ki, əsərdə əksini tapan təhlilləri oxuduqdan sonra qeyd edilən bu fikirlər mübaliğə kimi deyil, məhz səmimi, haqq olduğu anlaşılır.

Monoqrafiyanın çox maraqlı və sözün əsl mənasında tədqiqatın gəldiyi qənaətləri konkret, dəqiq və dolğun ümumiləşdirən "Nəticə"si vardır. Müəllif uzun-uzadı fikirlərlə oxucunu yormaq, fikir qovhaqovunda azdırmaq deyil, konkret müddəalar əsasında sanballı fikirlərlə gəldiyi qənaət və nəticələri ifadə edir. "Məmməd Araz poeziyası sözün Vətən qibləsidir", "Onun şeirləri vətəndaşlıq himnlərini xatırladır. ...Onun yaradıcılıq qayəsində Vətən ata ocağı, ata ocağı isə Vətəndir", "Onun əsərlərində konkret bir el, bir xalq obrazlaşır və ...bir xalqın tərcümeyi-halı diqqətə gəlir", "Məmməd Araz yaradıcılığı Araz talelidir" və başqa fikirlər öz yığcamlığı, dəqiq, dolğun və səlis ifadəsi ilə oxucularda konkret fikir fomalaşdırır.

Beləliklə, son dövrlərin yeni elmi nəşrlərindən olan "Milli yaddaşın məhək daşı: Xalq şairi Məmməd Araz" monoqrafiyasının təkcə alimlər, müəllimlər, tələbələr, konkret ixtisas sahibləri üçün deyil, ümumən geniş oxucu kütləsi, xüsusilə Məmməd Araz sevənlər üçün çox oxunaqlı və qiymətli bir mənbə olacağına inanırıq.

**Mahirə Hüseynova,**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dekanı, filologiya elmləri doktoru, professor